

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 aprel 2026-cı il, çərşənbə axşamı
№ 057 (7124)
Qiyməti 60 qəpik


# Azərbaycan Prezidenti Gürcüstanda dövlət səfərində...

## İlham Əliyev: Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir



Bax səh. 2

# Həm yaxşı, həm də çətin günlərdə...

Bax səh. 3

## Azərbaycan ərazisinin 13 faizi mina ilə çirkləndirilib

Hər il aprelin 4-də dünyada Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü qeyd edilir. 2005-ci il dekabrın 8-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası bu günün elan olunması haqqında qətnamə qəbul edib. Baş Assambleya BMT-nin və müvafiq strukturların dəstəyi ilə minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhalinin təhlükəsizliyinə, sağlamlığına və həyatına ciddi təhlükə törətdiyi və ya milli və yerli səviyyədə sosial-iqtisadi inkişafa mane olduğu ölkələrdə minatəmizləmə fəaliyyətini həyata keçirmək üçün milli potensialın yaradılmasına və inkişafına kömək göstərməyə davam etməyə çağırıb. Artıq 20 ildən çoxdur ki, BMT-nin Minatəmizləmə Xidməti mülki şəxslər, sülhməramlılar və humanitar işçilər də daxil olmaqla, partlayıcı qurğulardan zərər çəkmiş insanların ehtiyacları...

Bax səh. 5

## Qarabağ AZƏRBACANDIR!!!



Bax səh. 4

## Avropa və Yaxın Şərqin təhlükəsizliyi bir-biri ilə sıx bağlıdır

Yaxın Şərqdə münaqişənin davam etməsi nəticəsində Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı aparılan danışıqlar arxa plana keçib. Buna baxmayaraq, Kiyev diplomatik fəallığını artırmağa çalışır. Rusiya ilə müharibə şəraitində olmasına rəğmən Ukrayna Yaxın Şərq münaqişəsinin həllində rol oynamaq istəyir. Ukrayna Prezidenti Volodimir Zelenskinin Suriyaya səfəri də bunu göstərir.

Qeyd edək ki, Zelenski Suriyadan əvvəl Türkiyədə işgüzar səfərdə olub. Səfər çərçivəsində İstanbulda keçirilən görüşlərdə Ukrayna ilə Türkiyə arasında ikitərəfli məsələlər, regional proseslər, eləcə də ilk növbədə, İstanbul Prosesi çərçivəsində atəşkəsin təmin edilməsi və davamlı həll yolları istiqamətində səylər müzakirə olunub...

Bax səh. 6

## Hərbi sahədə uğurlu əməkdaşlıq...

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin də rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. İki qardaş...

Bax səh. 5



## Qlobal inflyasiya proqnozları ümidverici deyil

Bax səh. 6

## 45 günlük atəşkəs...



### ABŞ və İran "İslamabad şərtləri"nə hə deyəcəkmi?

Bax səh. 7

# Azərbaycan Prezidenti Gürcüstanda dövlət səfərində...







## İlham Əliyev: Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Gürcüstana dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili və digər rəsmi şəxslər qarşılayıblar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət ediblər.

***

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət ediblər.

## Rəsmi qarşılanma



Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın paytaxtı Tbilisidə rəsmi qarşılanma mərasimi olub.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

## Gürcüstan Prezidenti ilə təkbətək görüş





Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.

Söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunuldu.

Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulandı, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edildi.

Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulandı.

Azərbaycan və Gürcüstan prezidentləri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluqlarını bildirdilər, əlaqələrimizin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Görüşdən sonra dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazdı.

***

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü olub.

## “Biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq”

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış etdi.

### Baş nazir İrakli Kobaxidzenin bəyanatı

- Salam, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Media nümayəndələri.

Əvvəlcə Gürcüstanın əziz dostu cənab İlham Əliyevə Gürcüstana səfər etdiyinə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Onun Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.

Cənab Prezident, Sizi Gürcüstanda qəbul etmək və həm ikitərəfli əməkdaşlığa aid məsələləri, həm də regiondakı cari prosesləri müzakirə etmək imkanından məmnunam. Mən bu fürsətdən istifadə edərək, bütün Gürcüstanın Katolikos Patriarxı, Zati-müqəddəsləri İkinci İlyanın vəfatı ilə əlaqədar Azərbaycanın və şəxsən Sizin verdiyiniz başsağlığına görə dərin təşəkkürümü bildirirəm.

Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk. Mən, həmçinin həmin münasibətlərin inkişafında xüsusi rol oynayan nümayəndə heyətinin üzvlərinə, hökumət üzvlərinə və səfirlərə təşəkkür edirəm.

Mən Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdar qalacaq. Bu gün keçirilmiş görüş çərçivəsində, biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik.

Biz bu xüsusda Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsü qəti şəkildə dəstəkləyir. Lazım olan təqdirdə, biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq. Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır.



Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq.

Görüş zamanı biz, həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik.

Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etdirməkdə davam edəcək. Prezidentin səfəri bu baxımdan mühüm rol oynayır.

Yekun olaraq, cənab Prezident, dövlətlərimiz arasında münasibətlərin gücləndirilməsinə verdiyiniz şəxsi töhfəyə, səfərə gəldiyinizə və məhsuldar əməkdaşlığa görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, ikitərəfli münasibətlərin dərinləşməsi və inkişafına verdiyiniz şəxsi töhfəyə görə xüsusən minnətdaram.

## “Bizim münasibətlər bütün qonşular üçün nümunə ola bilər”

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

-Hörmətli cənab Baş nazir.

Əziz dostlar.

Cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş Gürcüstanda olmaq mənim üçün böyük şərəfdir. Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Fürsətdən istifadə edərək, Gürcüstanın əldə etdiyi uğurlar münasibətilə Sizi və hökumətinizi təbrik etmək istəyirəm.






Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir. Gürcüstanda çox müsbət sərmayə iqlimi var və məhz buna görə bir çox investorlar, o cümlədən Azərbaycan investorları Gürcüstana böyük maraq göstərirlər. Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək.

Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik.

Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim.

Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Fürsətdən istifadə edərək, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik arzulayıram. Dəvətə və qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

# Birinci xanım Mehriban Əliyeva Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub






Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımına muzey haqqında məlumat verildi.

Muzeyin binası vaxtilə Tbilisidə yaşayan Mirzə Fətəli Axundzadənin vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən, 1982-ci ildə binada Mirzə Fətəli Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunaraq, həmin vaxtdan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.

Gürcüstan Prezidentinin Sərəncamına əsasən, 2007-ci ildə Mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib və 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Elə həmin il mayın 8-də keçirilmiş muzeyin açılış mərasimi Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunub.

Hazırda muzeyin nəzdində fəaliyyət göstərən mədəniyyət mərkəzində xalçaçılıq, musiqi, o cümlədən muğam, rəsm və dil kursları var.

Əsas məqsədi mədəniyyətimizi və xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq və təbliğ etmək olan muzeydə bu ölkədə fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid əşyalar tədqiq edilir, onların sərgiləri keçirilir.

Burada milli musiqi alətlərimizin və geyimlərimizin, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələrin, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatların və digər maraqlı əşyaların nümayiş olunduğu 6 ekspozisiya zalı var.

Ekspozisiyada Gürcüstanda yaşayan etnik azərbaycanlılar tərəfindən toxunmuş və Milli Muzeydə saxlanılan ənənəvi xalçalar da təqdim olunur. Onların yaradılma tarixi yüzilliklərə gedib çıxır. Bu xalçaların toplanması və elmi cəhətdən öyrənilməsi XIX əsrin ortalarından - məhz Gürcüstan Milli Muzeyinin hüquqi varisi olduğu "Qafqaz Muzeyi" dövründən başlayır.

Azərbaycan-Gürcüstan dostluğuna həsr olunmuş zalda hər iki ölkənin heykəltaraşlarının xalqlarımızın dostluq münasibətlərini əks etdirən əsərləri, Tbilisi şəhərində Ulu Öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, M.F.Axundzadə adına məktəbin və kitabxananın, Bakı şəhərindəki Tbilisi prospektinin və "Dostluq abidəsi"nin fotoşəkilləri yer alıb.

Mədəni tədbirlər və konfransların da keçirildiyi muzeydə Mirzə Şəfi Vazehin 1820-1830-cu illərdə Gəncədə qurduğu "Divani-Hikmət" ədəbi məclisinin fəaliyyətini davam etdirən "Müdriklər Məclisi" yaradılıb. Burada Tbilisi şəhərində yeganə olan Azərbaycan dilində kitabxana və incəsənət qalereyası fəaliyyət göstərir.

Sonra Azərbaycanın birinci xanımı muzeyin xatirə kitabına ürək sözlərini yazdı. Uşaqlar tərəfindən toxunmuş kiçik xalçalar xanım Mehriban Əliyevaya hədiyyə olundu.

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Tbilisidə Gürcüstan Milli Muzeyində olub





Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Gürcüstan Milli Muzeyində olub.

AZƏRTAC xəbər verir ki, Gürcüstan Milli Muzeyində bu ölkənin tarixinin müxtəlif dövrlərinə aid eksponatlar sərgilənir.

Muzeyin "Gürcüstanda Daş dövrü" ekspozisiyası ölkədə aşkara çıxarılmış ən vacib arxeoloji irsi təqdim edir. İndiyədək Gürcüstanda 500-dən çox Daş dövrü abidəsi qeydə alınıb. Ekspozisiyada Dmanisidə (Kvemo Kartli bölgəsi) aşkarlanan tapıntılar xüsusi yer tutur. Burada təxminən 1,8 milyon il əvvələ aid insan qalıqları və əmək alətləri var. "Arxeoloji xəzinə" ekspozisiyasında isə Gürcüstanda aşkar edilmiş və eramızdan əvvəl III minillikdən eramızın IV əsrinə qədər olan dövrə aid nadir zərgərlik məmulatları nümayiş olunur.

Ekspozisiyalarla tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından Gürcüstan Milli Muzeyinə "Azərxalça"nın istehsalı olan beş nadir xalçadan ibarət "Mədəni irsə yeni baxış" adlı kolleksiya hədiyyə edildi. Kolleksiya qədim xalça nümunələrinin müasir interpretasiyasını təqdim edir. Kolleksiyaya klassik elementlərin, xüsusilə "Xətai" və "Çələbi" motivlərinin müasir kompozisiyada sintezi olan "Naxçıvan", Qarabağ xalça məktəbinin zəngin ornamentləri ilə yenidən işlənən "Açma-yumma", ritmik və təkrarlanan elementlərlə kainat harmoniyasını xatırladan "Qarabağ", "Bəndi-Rumi" kompozisiyası və Şərq sənət ənənələrinin müasir ifadəsi olan "Ovçuluq" və 2500 illik tarixə malik, dünyanın ən qədim xovlu xalçasının müasir interpretasiyası olan "Pazırık" xalçaları daxildir.

Muzeyin rəhbərliyi hədiyyələrə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlıq bildirdi.

# Həm yaxşı, həm də çətin günlərdə...

Azərbaycan və İran xoş günlərin sevincini bölüşən, çətinliklər zamanı həmişə bir-birinə köməyə gələn, dəstək göstərən qonşu ölkələrdirlər. Hər iki ölkədə cəmiyyətlər və dövlətlər səviyyəsində qarşılıqlı rəğbət yüksək səviyyədədir. Fevralın 28-dən başlayan müharibə ilə əlaqədar dost ölkədə yaranan çətinliklərin respublikamızda böyük həssaslıqla izlənilməsi bunun əyani təsdiqidir. Müharibə başlayandan bəri prezidentlər İlham Əliyev və Məsud Pezeşkian bir neçə dəfə telefon vasitəsi ilə təmaslar quraraq müxtəlif məsələlərlə əlaqədar fikir mübadiləsi aparıblar. Son olaraq Prezident İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana təşəkkür etməsinə münasibət bildirib.



Bu barədə Prezidentin "X" sosial media hesabında paylaşım edilib. Paylaşımda deyilir: "İran İslam Respublikasının Prezidenti, qardaşım Prezident Məsud Pezeşkianın Azərbaycan xalqına və dövlətinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə etməsi xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Dost və qardaş xalqlarımız əsrlər boyu bir-birinə dayaq olub və həm yaxşı, həm də çətin günlərdə daim bir-birimizin yanında olmağa davam edəcəyik".

**Bir sıra təbii amillərlə şərtlənən dostluq münasibətləri**

Müstəqil Azərbaycanın xarici siyasət kursunda qonşularla xoş mərama əsaslanan münasibətlərin qurulması xətti xüsusi yer tutur. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında dəfələrlə əsaslandırıb ki, heç bir ölkə qonşu dövlətlərlə yüksək səviyyədə əməkdaşlıq qurmadan uğurlu inkişafını təmin edə bilməz. Öz növbəsində respublikamız regional əməkdaşlığın dərinləşməsinə davamlı töhfələr verir. Ölkəmizin İkinci Qarabağ müharibəsinin nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar regionda təhdidlərin aradan qaldırılmasına və sabitlik, təhlükəsizlik şəraitində əməkdaşlığın genişləndirilmməsinə münbit zəmin yaradıb.

Azərbaycanla İranın dostluq münasibətlərinə gəldikdə isə bunu ilk növbədə bir sıra təbii amillər şərtləndirir. Hər şeydən əvvəl Azərbaycanla İranın coğrafi bağlılığı var. Respublikamızın ən uzun dövlət sərhədi 765 kilometr olmaqla məhz bu ölkə ilədir. Bu amil də iki ölkə arasında əlaqələrin qurulmasını asanlaşdırır, daşımalarda xərcləri azaldır, vaxtı qısaldır, təhlükəzisliyi təmin edir.

Coğrafiya yaxın olduğu kimi, Azərbaycan və İran xalqlarının keçdikləri yolda da oxşarlıqlar çoxdur. Tarixi əlaqələr, etiqad birliyi, mədəni köklər, milli-mənəvi dəyərlər, xalqların həyat tərzindəki oxşarlıqlar və bu kimi digər cəhətlər dostluğumuzun möhkəm və etibarlı olmasına, necə deyərlər, təbii təminatlar verir.

İran həm də o dövlətdir ki, dünya üzrə müstəqil Azərbaycanın hüdudlarından kənarda ən çox azərbaycanlı məhz burada yaşayır. Onlar ta qədimdən İran tarixinin formalaşmasında, bu dövlətin inkişafında mühüm rol oynayıblar. Bu gün də İranın ictimai-siyasi və mədəni həyatında soydaşlarımızın rolu böyükdür.

**Uğurla reallaşdırılan birgə layihələr**

İndiyədək Azərbaycanla İranın birlikdə reallaşdırdıqları layihələr iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsini əyani şəkildə təsdiqləyir. Xüsusilə də nəqliyyat sahəsində reallaşdırılan birgə layihələr əməkdaşlığa yaxşı nümunədir. Hər iki ölkə Şimal-Cənub Dəhlizində öz səylərini birləşdirməklə onun funksionallığının artırılmasına böyük səy göstərir.

Ağbənd istiqamətində yeni avtomobil körpüsünün inşası əlaqələrin genişlənməsinə güclü impuls verəcək. Körpünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra onun istismara verilməsi nəzərdə tutulur.

Hazırda Araz çayının cənub sahili boyunca yeni nəqliyyat infrastrukturunun yaradılması layihəsinin icrası intensiv şəkildə davam etdirilir. Layihəyə uyğun olaraq Azərbaycanın əsas hissəsini İran ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına birləşdirmək üçün Biləsuvar-Bazərqan magistral yolu çəkiləcək. Bəhs olunan marşrut üzrə, həmçinin İran ərazisindən keçməklə Şərqi Zəngəzurla Naxçıvan arasında yeni dəmir yolu xətti çəkiləcək. Bununla bağlı müvafiq sənədlər imzalanıb.

Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının inşası ilə ikitərəfli münasibətlərdə yeni bir səhifə açılıb. Ölkələrimiz arasında xoş niyyətə əsaslanan münasibətlərin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin həyata keçirilməsi göstərir ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə səmərəli əməkdaşlıq imkanlarına uğurla çevirən ölkələrdir.

**Döst ölkənin üzləşdiyi çətinliklərə Azərbaycanın həssas yanaşması**

İki dost və qardaş xalqın həm yaxşı, həm də çətin günlərdə daim bir-birinin yanında olmasını İranın fevralın 28-dən başlayan müharibə ilə əlaqədar üzləşdiyi çətinliklərə Azərbaycanın həssas yanaşma sərgiləməsi bir daha təsdiqləyir. Məlumdur ki, fevralın 28-dən başlayan İran - ABŞ -İsrail müharibəsi bu ölkədə mülki infrastruktura ciddi ziyan vurur, təchizatı çətinləşdirir. Belə vəziyyətdə Azərbaycan özünün humanizm və qonşuluq siyasətinə sadiqliyini nümayiş etdirir. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib. Eyni zamanda, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq respublikamızdan qonşu ölkəyə humanitar yardımlar göndərilir. Respublikamızdan İrana ilk dəfə humanitar yardım martın 10-da yola salınnıb. Göndərilən yardıma 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxil idi.

Bundan sonra Azərbaycandan Novruz bayramı ərəfəsində qonşu ölkəyə 5 yük avtomobili (TIR) vasitəsilə növbəti humanitar yardım yola salınıb. Bu humanitar yardıma ümumi həcmi 82 ton olan müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlar daxil idi. Humanitar yardımın Novruz bayramı ərəfəsində göndərilməsi nəzərə alınaraq, yük avtomobillərinə müvafiq Novruz sovqatı və bayram məhsulları da əlavə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, İran İslam Respublikasına növbəti humanitar yardım aprelin 4-də yola salınıb. Yardım prezidentlər İlham Əliyev və Məsud Pezeşkian arasında 2026-cı il martın 8-də baş tutmuş telefon danışığına uyğun olaraq həyata keçirilib. Məqsəd qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək göstərməkdir.

İran İslam Respublikasına göndərilən, ümumi həcmi 200 ton olan humanitar yardıma 190 ton ərzaq və qida məhsulları, 7 ton dərman vasitələri və 3 ton tibbi ləvazimatlar daxildir. Humanitar yardım 10 yük avtomobili (TIR) vasitəsilə yola salınıb.

Eyni zamanda, Azərbaycan bir neçə dəfə Rusiyadan gələn humanitar yardımın İrana göndərilməsinə imkan yaradıb. Dövlətimizin başçısının bildirdiyi kimi, qonşu və dost ölkəyə respublikamızdan humanitar yardımlar göndərilməsi bundan sonra da davam etdiriləcək.

*Mübariz FEYİZLİ*

# Qarabağ AZƏRBACANDIR!!!

## Bu FAKTIN nə Rusiya, nə də Ermənistan tərəfindən təsdiqinə ehtiyac yoxdur

### Rəsmi Bakı Rusiyaya etiraz etdi

**XX əsrin sonunda Sovet İttifaqının dağılması ilə işğala və təcavüzə məruz qalan Azərbaycan heç bir zaman bu faktla barışmayıb. BMT və onun kimi digər yüksək strukturların tribunasından Azərbaycan həqiqətləri səsləndirilib, Qarabağın Azərbaycanın tarixi, ayrılmaz və suveren ərazisi olması faktı bütün beynəlxalq aləmə çatdırılıb. Tarix yaranan gündən - minilliklər boyu bu region Azərbaycanın ərazisi olub və olacaq. 1990-cı illərin əvvəlində Ermənistanın etdiyi hərəkətlər isə İŞĞAL FAKTI idi. Azərbaycan yorulmadan, usanmadan, hətta qarşısı qalır müəyyən maneələrlə kəsməyə çalışılsa belə bu faktı bütün dünyaya çatdırdı. Bütün beynəlxalq strukturlar, başda BMT TŞ olmaqla Qarabağın Azərbaycanın suveren ərazisi olmasını təsdiqləyən qətnamələri, qərarları və bəyanatları mövcuddur. Beləliklə, 2020-ci ildə və 2023-cü ildə Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini təmin edən zaman həm də tarixi ədalət öz yerini tapdı. Qarabağ ərazisi işğaldan azad edildi, beynəlxalq hüquq bərpa olundu. Artıq 6 ildir ki, işğal faktı aradan qaldırılıb, regionda yeni bir reallıq hökm sürür. Azərbaycan vaxtilə Qarabağın azad edilməsi istiqamətində beynəlxalq səviyyədə iş aparılmasına imkan yaratmışdı - dövlətimiz qlobal dünyanın beynəlxalq hüququ təmin edəcəyinə inanırdı. Amma təəssüf ki, bu baş vermədi - Azərbaycan özünün iradəsi, qətiyyəti və gücü sayəsində torpaqlarını işğaldan azad etdi. Yeni mərhələdə isə bölgədə sülh prosesinin inkişafı hədəflənir - Ermənistan ilə Azərbaycan ikili formatda münasibətlərini yeni dövr üçün tənzimləməyə çalışırlar. Bu isə artıq beynəlxalq aləmin deyil, iki dövlətin arasında olan bir prosesdir.**




## Siyasi etikadan kənar, beynəlxalq hüquqa zidd...

Təəssüfləndirici haldır ki, bəzən ölkələr qarşılıqlı münasibətlərini “nizamlamaq” üçün fərqli “yollara” əl atırlar. Hətta başqa dövlətlərin daxili işlərinə əl uzatmağa çalışır, bunu “müzakirə predmeti” etməyə cəhd göstərir. Bu, yolverilməzdir. Məsələn, bu ilin aprelin 1-də Moskvada Rusiya prezidenti Vladimir Putin ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında gedən müzakirələr zamanı nədənsə Azərbaycanın suverenliyi, Qarabağın azad edilməsi kimi məsələlər “nədənsə” müzakirə predmetinə çevrilib. Ermənistan ilə Rusiya arasındakı hazırkı münasibətlər heç kimə sirr deyil - İrəvan Kremlin orbitindən tam mitina edərək Aİ-yə üz tutub. Bu, Ermənistanın daxili işidir. Rusiya isə cidd-cəhdlə bu faktı “fərqli istiqamətlərdə yozmağa çalışır”. Münasibətlərdəki gərginliyin Vətən müharibəsi, antiterror tədbirləri zamanı Azərbaycanın öz tarixi, hüquqi ərazisi olan Qarabağın azad edilməsi ilə faktı “uzlaşdırılmasına” çalışılması isə həm diplomatik cəhətdən qeyri-etik, həm də siyasi cəhətdən qüsurlu bir haldır. Moskva İrəvan ilə münasibətlərini Qarabağ üzərində spekulyasiya etməklə nizama salmağa “çalışırsa”, bu ən böyük səhvdir. Vladimir Putinin “Ermənistan 2022-ci ildə Qarabağın Azərbaycan torpaqları olmasını ilk olaraq təsdiqləyib” formasında “ibarəsi” isə düzgün ifadə deyil - Qarabağ hər zaman, hətta işğalda olan zamanlarda belə Azərbaycan torpağı olub. Bunu elə Rusiya da hər zaman təsdiqləyib. Amma bu fikirlərin yanlış formada “tirajlanma” cəhdi digər marığa yatmış ermənipərəstlərin də “dilinə dil verir”.

## Azərbaycan etirazını bildirir...

Yeri gəlmişkən, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Rusiyada Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı son günlərdə səsləndirilən fikirlərə dair şərh verib. Bildirilib ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında aprelin 1-də Moskvada keçirilmiş görüş zamanı və ondan sonra Rusiyanın rəsmi şəxsləri tərəfindən ictimai müzakirələrdə Azərbaycanın sırf daxili işlərinə aid məsələlərə toxunulub. Bununla əlaqədar, diplomatik kanallar vasitəsilə Azərbaycanın Qarabağ bölgəsindən siyasi spekulyasiyalarda istifadə edilməsinin qəbuledilməzliyi barədə mövqeyimiz və bunun dayandırılmasına dair gözləntilərimiz Rusiya Prezidentinin Administrasiyasının, Hökumətin və XİN-in diqqətinə çatdırılıb. Buna baxmayaraq, mövzu Rusiya tərəfinin rəsmi siyasi diskursunda davam etməkdədir. “Bu gün Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov “Vesti” kanalına müsahibəsində Ermənistan-Rusiya münasibətlərinə dair mövqe bildirərkən növbəti dəfə Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi ilk olaraq Rusiya, yoxsa Ermənistan tərəfindən tanınması barədə şərh verib. Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması hər hansı bir dövlətin qərarına deyil, tarix, beynəlxalq hüquq və ədalətə söykənir. Bu, 2020-ci il 44 günlük Vətən müharibəsi və 2023-cü il 1 günlük antiterror tədbirləri nəticəsində bir daha təsdiq olunaraq, tam bərqərar olub. Rusiya tərəfinə bir daha xatırlatmaq istərdik ki, Rusiya Federasiyası daxil olmaqla, heç bir ölkə, heç bir dövrdə Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü sual altına qoymayıb. Azərbaycanın suverenliyinə aid olan məsələlərin Rusiya-Ermənistan münasibətlərinin sadə olmadığı hazırkı dövrdə ictimai müstəvidə münasibətlərin aydınlaşdırılması predmetinə çevrilməyəcəyinə dair gözləntilərimizi bir daha Rusiya tərəfinin diqqətinə çatdırırıq”, - deyə XİN-in şərhində vurğulanıb.

**Qarabağı nəinki Paşinyan və ya bir başqası “təslim etməyib” - Qarabağı Azərbaycanın şanlı Silahlı Qüvvələri müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə canı, qanı bahasına işğaldan azad edib. Paşinyan Şuşada yallı getmirdimi? Və ya Ermənistanın hazırkı iqtidarı “yeni işğallar” haqda danışmırdılarmı? Kimin torpağını kimə təslim edirlər? Qarabağ hər zaman Azərbaycan torpağı olub. Sadəcə, Qarabağın işğaldan azad edilməsi Zatulin və onun kimilərinin erməni lobbisi tərəfindən ayrılan pullarının kəsilməsinə səbəb olub. Zatulinin pərdə arxasından “çıxardığı səs” məhz bundan qaynaqlanır**

**Ermənistan ilə Rusiya arasındakı hazırkı münasibətlər heç kimə sirr deyil - İrəvan Kremlin orbitindən tam imtina edərək Aİ-yə üz tutub. Bu, Ermənistanın daxili işidir. Rusiya isə cidd-cəhdlə bu faktı “fərqli istiqamətlərdə yozmağa çalışır”. Münasibətlərdəki gərginliyin Vətən müharibəsi, antiterror tədbirləri zamanı Azərbaycanın öz tarixi, hüquqi ərazisi olan Qarabağın azad edilməsi faktı ilə “uzlaşdırılmasına” çalışılması isə həm diplomatik cəhətdən qeyri-etik, həm də siyasi cəhətdən qüsurlu bir haldır. Moskva İrəvan ilə münasibətlərini Qarabağ üzərində spekulyasiya etməklə nizama salmağa “çalışırsa”, bu ən böyük səhvdir**

## Zatulinin “səsi” - köhnə ermənipərəst təzə “iştaha” düşüb...

Nədəndirsə, Paşinyan ilə Putin arasında gedən “müzakirə” sonradan bəzi şəxslər tərəfindən də davam etdirilir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun açıqlamısının ardından köhnə ermənipərəst deputat Konstantin Zatulin “həvəslə” yenidən bu məsələ ətrafında polemika açmaq cəhdini ortaya qoyur. Zatulin məsələni bir az da “dramatikləşdirməyə” çalışır - guya, Paşinyan Qarabağı Azərbaycana təslim edib. Onun “fikirlərindəki” altməna da elə bütün siyasi fəaliyyəti kimi yanlış və qərəzlidir. Qarabağı nəinki Paşinyan və ya bir başqası “təslim etməyib” - Qarabağı Azərbaycanın şanlı Silahlı Qüvvələri müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə canı, qanı bahasına işğaldan azad edib. Paşinyan Şuşada yallı getmirdimi? Və ya Ermənistanın hazırkı iqtidarı “yeni işğallar” haqda danışmırdılarmı? Kimin torpağını kimə təslim edirlər? Qarabağ hər zaman Azərbaycan torpağı olub. Sadəcə, Qarabağın işğaldan azad edilməsi Zatulin və onun kimilərinin erməni lobbisi tərəfindən ayrılan pullarının kəsilməsinə səbəb olub. Zatulinin pərdə arxasından “çıxardığı səs” məhz bundan qaynaqlanır.

## Beynəlxalq aləmin mövqeyi...

Bir daha vurğulanmalıdır ki, Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləyən beynəlxalq mövqe son 30-40 ildə bütün aparıcı beynəlxalq təşkilatların qətnamə və bəyanatlarında öz əksini tapıb. Bu sənədlər beynəlxalq hüququn əsas prinsiplərinə-dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına əsaslanır. Məsələn, BMT Təhlükəsizlik Şurasının qətnamələri - Qarabağ məsələsi ilə bağlı ən mühüm hüquqi sənədlər BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsidir:

- 822 saylı qətnamə (30 aprel 1993) - Kəlbəcərin işğalı pislənir, Ermənistan silahlı qüvvələrinin dərhal çıxarılması tələb olunur;
- 853 saylı qətnamə (29 iyul 1993) - Ağdamın işğalı pislənir, İşğalçı qüvvələrin geri çəkilməsi tələb edilir;
- 874 saylı qətnamə (14 oktyabr 1993) Atəşkəs və sülh planı dəstəklənir, əvvəlki qətnamələrin icrası tələb olunur;
- 884 saylı qətnamə (12 noyabr 1993) - Zəngilan və Horadiz istiqamətində hücumlar pislənir, qoşunların çıxarılması yenidən tələb edilir.

Bu qətnamələrin hamısında Azərbaycanın ərazi bütövlüyü təsdiqlənir, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Bundan başqa, BMT Baş Assambleyasının son bəyannamələrində, BMT platformasında qəbul olunan sənədlər və çıxışlarda Qarabağ Azərbaycanın tərkib hissəsi kimi təqdim edilir, beynəlxalq sərhədlərin dəyişdirilməsinin güc yolu ilə yolverilməzliyi vurğulanır.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2005-ci ildə qəbul olunan 1416 saylı qətnaməsində Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi qeyd olunur, qoşunların işğal olunmuş ərazilərdən çıxarılması tələb edilir. Avropa Parlamentinin 2010-cu ildə qəbul edilən qətnaməsində (Cənubi Qafqaz strategiyası) Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxması tələb olunur. Bu siyahıya ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər qurumların da adlarını əlavə etmək olar. Bütün bəyanat və qətnamələrdə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunur - ortaya qoyulan ümumi mövqe isə ondan ibarətdir ki, Qarabağ Azərbaycan Respublikasının ərazisidir, heç bir beynəlxalq təşkilat qondarma “Qarabağın “müstəqilliyini” tanımayıb, Ermənistanın bu ərazilərdə hərbi mövcudluğu işğal kimi qiymətləndirilib, işğal olunmuş ərazilərdən qoşunların çıxarılması tələb olunub.

Beləliklə, Rusiya ilə Ermənistanın öz “münasibətlərinə” dolayısı ilə də olsa, Azərbaycan torpaqları üzərindən aydınlıq gətirmək cəhdləri nə hüquqi, nə də mənəvi əsasa sığmır. Azərbaycan daima ədaləti, haqqı və hüququ tələb edib, qoruyub, dəstəkləyib...

***P.İSMAYILOV***

# Azərbaycan ərazisinin 13 faizi mina ilə çirkləndirilib

**Hər il aprelin 4-də dünyada Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü qeyd edilir. 2005-ci il dekabrın 8-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası bu günün elan olunması haqqında qətnamə qəbul edib. Baş Assambleya BMT-nin və müvafiq strukturların dəstəyi ilə minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhalinin təhlükəsizliyinə, sağlamlığına və həyatına ciddi təhlükə törətdiyi və ya milli və yerli səviyyədə sosial-iqtisadi inkişafa mane olduğu ölkələrdə minatəmizləmə fəaliyyətini həyata keçirmək üçün milli potensialın yaradılmasına və inkişafına kömək göstərməyə davam etməyə çağırıb. Artıq 20 ildən çoxdur ki, BMT-nin Minatəmizləmə Xidməti mülki şəxslər, sülhməramlılar və humanitar işçilər də daxil olmaqla, partlayıcı qurğulardan zərər çəkmiş insanların ehtiyacları ilə bağlı məsələlərə reaksiya verir.**

## 160-dan artıq ölkənin ratifikasiya etdiyi Konvensiya...

BMT-nin Minatəmizləmə Xidməti təşkilatın missiyalarının yerləşdirilməsini asanlaşdırmaqla, humanitar yardım çatdırmaqla, mülki insanları qorumaqla, məcburi köçkünlərin və qaçqınların könüllü qayıtmasını dəstəkləməklə insanların həyatını xilas edir. Xidmətin əməkdaşları beynəlxalq humanitar hüququn və insan hüquqlarının təşviqinə yönəlmiş icmaların yenidən qurulması fəaliyyətlərində və kampaniyalarda iştirak edirlər.

2026-cı ildə Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü "Sülhə sərmayə qoyun, mina fəaliyyətinə sərmayə qoyun" mövzusunda qeyd olunur. Bu ilin qlobal mövzusu əsas bir həqiqəti vurğulayır: mülki şəxsləri təhlükəyə atan, humanitar və inkişaf səylərini əngəlləyən piyadaəleyhinə minalar, klaster sursatlarının qalıqları və digər partlayıcı sursatlar mövcud olduğu müddətdə sülh davamlı ola bilməz. BMT-nin minalarla mübarizə iştirakçıları münaqişələrdən təsirlənən əlilliyi olan insanlara dəstək olmaq üçün mikrolayihələrin və əməliyyat təşəbbüslərinin maliyyələşdirilməsinin vacibliyini vurğulayırlar. Bu, mülki şəxslərin müdafiəsi və inkişaf etməkdə olan ölkələrdə texnoloji və innovativ potensialın yaradılması üzrə qlobal öhdəliyi gücləndirir. 1997-ci ildən "Piyada əleyhinə minaların istifadəsi, ehtiyatı, istehsalı və təhvilinin qadağan edilməsi və onların məhvi haqqında" Konvensiyanın imzalanmaya açıldığı vaxtdan bəri 160-dan artıq ölkə onu ratifikasiya edib və ya bu sənədə qoşulub. Bu sənəd piyada əleyhinə minaların mülki şəxslərə təsiri barədə ictimaiyyətin məlumatlılığını artırıb və ümumi qadağan olunma tədbirləri üçün qlobal dəstəyi səfərbər edib.

## XİN: Beynəlxalq ictimaiyyəti minatəmizləmə fəaliyyətini dəstəkləməyə çağırırıq

Azərbaycan mina təhlükəsinin ən ağır nəticələrini yaşayan ölkələrdən biridir. Ermənistan işğalçılıq siyasəti dövründə ərazilərimizə yüzminlərlə mina basdırıb. Respublikamız mina və müharibənin digər partlayıcı qalıqları ilə ən çox çirklənmiş ölkələr arasında ilk onluqdadır. Rəsmi məlumatlara görə, işğaldan azad olunmuş ərazilərdə təxminən 11 min 667 kvadrat kilometr sahə mina və digər partlayıcı qalıqları ilə çirklənib. Bu, ölkə ərazisinin 13 faizindən çoxu deməkdir. Həmin ərazilərdə təxminən 1 milyondan çox minanın mövcud olduğu bildirilir.

Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsinə qarşı Mübarizə Günü ilə bağlı "X" sosial media hesabında etdiyi paylaşımda qeyd olunub ki, Azərbaycan minaların ağır humanitar fəsadlarının aradan qaldırılmasına sadiq olduğunu bir daha təsdiqləyir: "Azərbaycanda minalar və partlamamış hərbi sursatlar insan həyatı üçün ciddi təhlükə yaratmaqda, yenidənqurma işlərinə mane olmaqda və köçkünlərin təhlükəsiz qayıdışına əngəl törətməkdə davam edir". Vurğulanıb ki, Azərbaycan mina çirklənməsindən ən çox əziyyət çəkən ölkələr sırasında qalmaqdadır: "Biz beynəlxalq ictimaiyyəti humanitar minatəmizləmə səylərinə və mina qurbanlarına göstərilən yardıma dəstəyi gücləndirməyə çağırırıq. Minasız gələcək davamlı sülh, inkişaf və insan təhlükəsizliyi üçün zəruridir".

## 30 il ərzində 3400-dən çox insan minaların qurbanı olub




Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi isə Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsinə qarşı Mübarizə Günü ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilib ki, Azərbaycan müharibənin partlayıcı qalıqları və kustar üsulla hazırlanmış partlayıcı qurğular səbəbindən yaralanma, ölüm və ya əsas xidmətlərə çıxışın məhdudlaşdırılması riski ilə üzləşən milyonlarla insanın qarşılaşdığı təhlükələrdən ən çox əziyyət çəkən ölkələr sırasındadır və ərazisinin 13 faizindən çoxu mina ilə çirklənib. Diqqətə çatdırılıb ki, son 30 il ərzində 3 400-dən çox insan minaların və müharibənin partlayıcı qalıqlarının qurbanı olub. Təkcə 2020-ci ilin noyabr ayından bəri aralarında qadın və uşaqların da olduğu 421 mülki şəxs mina partlayışlarının qurbanı olub, onlardan 72-si həlak olub, 349-u isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb və bu rəqəm artmağa davam edir.

Qeyd olunub ki, genişmiqyaslı mina çirklənməsi digər fəsadlarla yanaşı, iqtisadi dirçəliş, yenidənqurma və reabilitasiya səylərinə mane olur, eyni zamanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tam icrası üçün ciddi maneə törədir: "Azərbaycan mina təmizləmə fəaliyyətini dayanıqlı inkişafın mühüm amili kimi təşviq və icra edir, yenidənqurmanı dəstəkləyir, icmaların dayanıqlılığı üçün kritik olan torpaqlara və resurslara çıxışı bərpa edir. Mina təmizləmə səylərinin davamlı və qalıcı inkişafla bağlılığını, eləcə də təmizlənmiş ərazilərin əhalinin rifahına, ölkənin tərəqqisinə və inkişafına mühüm təsirini nəzərə alaraq Azərbaycan humanitar mina təmizləməni rəsmən 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan edib".

Bəyanatda, həmçinin Azərbaycanın BMT-nin mina aksiyasını prioritet məsələ kimi irəli sürməyə və beynəlxalq konfranslar keçirməyə davam etdiyi vurğulanıb: "Azərbaycan mina təmizləmə fəaliyyətinin gender ölçüsünə də xüsusi önəm verir. Bu baxımdan, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) beynəlxalq tərəfdaşları ilə birgə layihəsi çərçivəsində ölkədə ilk qadın minatəmizləmə komandaları yaradılıb. Bu təşəbbüs nəinki milli minatəmizləmə potensialının gücləndirilməsinə, həm də həyati əhəmiyyət kəsb edən bu humanitar sahədə qadınların mənalı iştirakının təşviqinə töhfə verib". Bəyanatın sonunda qlobal mina təhlükəsi ilə mübarizədə beynəlxalq yardımın önəmi qeyd edilib.

***Nardar BAYRAMLI***

# Hərbi sahədə uğurlu əməkdaşlıq...

## Azərbaycan və Türkiyə hərbçilərinin birgə təlimləri qardaşlığın göstəricisidir

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin də rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

## Qarsda "Heydər Əliyev-2026" birgə təlimi...



Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. İki qardaş dövlət olan Azərbaycanla Türkiyənin hərbi qüvvələrinin birgə hərbi təlimləri isə artıq ənənə halını alıb. Buna nümunə kimi iki ölkənin "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "Sarsılmaz Qardaşlıq" adlı birgə hərbi təlimlərini göstərmək olar. Eləcə də Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının "Üç qardaş" hərbi təlimləri də xüsusi vurğulanmalıdır.



Qeyd edək ki, 2026-cı ilin planına əsasən, Azərbaycan və Türkiyənin hərbçiləri birgə hərbi təlimlər keçirirlər. İki qardaş dövlət arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində keçirilən "Heydər Əliyev-2026" birgə təlimi də bunun göstəricisidir. Müdafiə Nazirliyindən verilən məlumata görə, əvvəlcə birgə təlimə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib. Bildirilib ki, Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahından hərəkətə başlayan bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda, Türkiyənin bayraq taqımı da Qars şəhərindən mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib.

"Ümid" körpüsündə Azərbaycanın Dövlət Himni və Türkiyənin İstiqlal Marşı ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub. Sonra təlimə cəlb ediləcək şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibətilə keçirilən tədbirdə ƏÜO komandanı, general-leytenant Kənan Seyidov çıxış edərək birgə hərbi təlimin əhəmiyyətindən danışıb, təlim iştirakçılarına uğurlar arzulayıb. Tədbirdən sonra təlimə cəlb ediləcək bölmələr Naxçıvan şəhərindən yola düşüblər.

Qeyd edək ki, təlimin keçirilməsində məqsəd müasir döyüşün prinsiplərinə uyğun birgə əməliyyatların planlaşdırılması və icrası, koordinasiyanın təşkil edilməsi, döyüşün hərtərəfli təminatı üzrə təcrübə mübadiləsinin aparılması və şəxsi heyətin bilik və bacarıqlarının artırılmasından ibarətdir. Təlimin planında müxtəlif şəraitlərdə döyüş, eyni zamanda, xüsusi tapşırıqların icra olunması əksini tapıb.

## "Şuşa Bəyannaməsi" hərbi əlaqələri gücləndirir

Ümumiyyətlə, hazırda dünyada artan münaqişələr, qlobal təhdidlər belə hərbi təlimlərin davamlı olaraq keçirilməsini zəruri edir. Nəzərə alaq ki, hazırda regionda münaqişə və müharibələr davam edir. Ona görə də, ölkəmizin müdafiə qabiliyyətinin artırılmasında hərbi təlimlər vacib rol oynayır. Məsələ ilə bağlı qəzetimizə açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib ki, mütəmadi olaraq hərbi təlimlərin keçirilməsi dövlətlərarası razılaşmalara əsasən reallaşdırılır. Azərbaycanın ən çox birgə hərbi təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiyədir. Onun sözlərinə görə, Azərbaycan dövlətinin bu istiqamətdə sərgilədiyi mövqe beynəlxalq hüquqa və dövlətlərarası imzalanmış sənədlərə əsaslanır: "Azərbaycan ilə Türkiyə bu gün əsl müttəfiqlik nümunəsi ortaya qoyur. Müttəfiqliyin ən mühüm istiqamətlərindən biri olan hərbi əməkdaşlıq iki qardaş ölkənin Silahlı Qüvvələrinin yeni situasiyada birgə fəaliyyəti üçün də perspektivlər vəd edir. Nəzərə alaq ki, "Şuşa Bəyannaməsi"ndə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edilməsi xüsusi vurğulanır. O cümlədən sənəddə Azərbaycanla Türkiyənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi bildirilir. Bütün bunlar isə yeni dönəmdə Azərbaycan-Türkiyə müttəfiqliyinin əsas komponentləri sırasındadır".

Hərbi ekspert qeyd edib ki, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlərin keçirilməsi hərbi əməkdaşlığın mühüm elementlərindən biridir. Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də hər iki dövlətin əməkdaşlığı yüksələn xətlə davam edir. Yəni bu istiqamətdə siyasi iradə ortadadır. Bunun nəticəsində Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə hərbi təlimləri ilbəil artırılır. Onun sözlərinə görə, Türkiyənin Qars şəhərində keçirilən "Heydər Əliyev-2026" birgə təlimi də bu baxımdan önəmlidir. Bu təlimlər heç bir ölkəyə qarşı yönəlməyib, sadəcə iki qardaş ölkənin əməkdaşlığı çərçivəsində həyata keçirilir.

"Əslində, düşünürəm ki, bu hərbi təlimlər sülh və təhlükəsizlik naminədir, onun bütün region üçün faydası var. Çünki Azərbaycanla Türkiyə hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Məşhur bir deyim var ki, "təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan axıdarsan". Türkiyə ordusu NATO-nun ikinci güclü ordusudur. Azərbaycan Ordusunun belə bir güclü, müasir tələblərə cavab verən ordu ilə əməkdaşlığı, birgə təlimləri davam edəcək",- deyə E.Həsənli vurğulayıb.

***Nardar BAYRAMLI***




# "Daily News Hungary": Azərbaycan diasporu rəqəmsal diplomatiyada fəal rolunu gücləndirir

Macarıstanın "Daily News Hungary" nəşrində dərc olunan məqalədə Azərbaycan diasporunun müasir kommunikasiya və rəqəmsal diplomatiya mühitində artan rolu geniş şəkildə təhlil olunub. Nəşr qeyd edir ki, qlobal rəqəmsallaşma şəraitində informasiya axınının sürəti və ictimai iştirak imkanlarının genişlənməsi diaspor təşkilatları üçün yeni imkanlar yaradıb.

Məqalədə vurğulanır ki, Azərbaycan diasporu bu imkanlardan səmərəli istifadə edərək ölkənin milli maraqlarının beynəlxalq səviyyədə təşviqinə töhfə verir. Xüsusilə sosial media platformaları və rəqəmsal kommunikasiya alətləri vasitəsilə Azərbaycanın mövqeləri daha geniş auditoriyaya çatdırılır.

Nəşrin məlumatına görə, diaspor nümayəndələri yalnız informasiya yaymaqla kifayətlənmir, həm də ictimai rəyin formalaşmasına təsir göstərən müzakirələrdə fəal iştirak edirlər. Bu isə Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edir.

Məqalədə qeyd olunur ki, müasir rəqəmsal diplomatiya şəraitində çeviklik, şəffaflıq və operativlik əsas amillər hesab olunur. Azərbaycan diasporu bu prinsiplərə uyğun fəaliyyət göstərərək yeni kommunikasiya çağırışlarına uğurla uyğunlaşır.

Bununla yanaşı, nəşr Azərbaycanın bu sahədə əldə etdiyi uğurları xüsusi vurğulayaraq bildirir ki, ölkə informasiya siyasətində innovativ yanaşmaları tətbiq etməklə beynəlxalq informasiya məkanında mövqelərini gücləndirir.

Beləliklə, "Daily News Hungary" nəşrinin qənaətinə görə, Azərbaycan diasporunun rəqəmsal diplomatiyada artan fəallığı ölkənin xarici siyasətinin effektiv alətlərindən birinə çevrilməkdədir və bu tendensiya gələcəkdə daha da güclənəcək.

# Avropa və Yaxın Şərqin təhlükəsizliyi bir-biri ilə sıx bağlıdır

## Zelenskinin regiona səfəri nə il yadda qaldı?

**Yaxın Şərqdə münaqişənin davam etməsi nəticəsində Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı aparılan danışıqlar arxa plana keçib. Buna baxmayaraq, Kiyev diplomatik fəallığını artırmağa çalışır. Rusiya ilə müharibə şəraitində olmasına rəğmən Ukrayna Yaxın Şərq münaqişəsinin həllində rol oynamaq istəyir. Ukrayna Prezidenti Volodimir Zelenskinin Suriyaya səfəri də bunu göstərir.**

### Zelenski Dəməşqdən əvvəl İstanbulda olub

Qeyd edək ki, Zelenski Suriyadan əvvəl Türkiyədə işgüzar səfərdə olub. Səfər çərçivəsində İstanbulda keçirilən görüşlərdə Ukrayna ilə Türkiyə arasında ikitərəfli məsələlər, regional proseslər, eləcə də ilk növbədə, İstanbul Prosesi çərçivəsində atəşkəsin təmin edilməsi və davamlı həll yolları istiqamətində səylər müzakirə olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Zelenskinin Dolmabahçe İş Ofisində baş tutan görüşündə Türkiyə-Ukrayna ikitərəfli münasibətləri, Ukrayna-Rusiya müharibəsində sülh yolları, eləcə də regional və qlobal prosesləri müzakirə ediblər. Prezident Ərdoğan görüş zamanı Türkiyənin Ukrayna ilə Rusiya arasında danışıqlara dəstəyinin davam edəcəyini, bölgənin daha çox sülh və sabitliyə ehtiyacı olduğunu bildirib. Ərdoğan Türkiyənin Qara dənizdə gəmiçiliyin təhlükəsizliyinə böyük əhəmiyyət verdiyini qeyd edərək enerji təchizatının təhlükəsizliyinin vacibliyini vurğulayıb.

O, Türkiyənin Ukrayna ilə qarşılıqlı ticarət dövriyyəsini artırmaqda qətiyyətli olduğunu və bunun üçün zəruri addımların atılmağa davam edəcəyini bildirib, Ukraynanın Körfəz ölkələri ilə münasibətlərini inkişaf etdirməsindən məmnunluğunu ifadə edib.

Ukrayna Prezidenti V.Zelenski isə sosial media hesablarında yazıb ki, İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətləri, Avropa və Yaxın Şərqdəki vəziyyəti müzakirə etdik. Birgə və əlaqələndirilmiş hərəkətlərlə dünyanın hər yerində insanlar üçün daha böyük təhlükəsizliyin təmin edilməsi vacibdir. "Təhlükəsizlik sahəsində əməkdaşlıqda yeni addımlar barədə razılığa gəldik. Bu, ilk növbədə, Türkiyəni necə dəstəkləyə biləcəyimizə aiddir: texnologiya və təcrübə. Birgə işləmək üçün fundamental siyasi öhdəlik var və komandalarımız yaxın günlərdə detalları dəqiqləşdirəcəklər. Qaz infrastrukturunun tikintisində birgə layihələrin həyata keçirilməsi üçün praktik addımları, eləcə də qaz yataqlarının birgə işlənməsi imkanlarını müzakirə etdik", - deyə Zelenski əlavə edib. O, Ukraynanın müstəqilliyinə və ərazi bütövlüyünə ardıcıl dəstəklərinə görə Türkiyə Prezidentinə və xalqına minnətdarlığını bildirib: "Bütün bu illər ərzində sıx əməkdaşlığımızı yüksək qiymətləndiririk ki, bu da bizə bütün bölgəni gücləndirə biləcək ciddi layihələr üzərində işləməyə imkan verir".





### Hakan Fidan Ukrayna və Suriya liderlərinin görüşündə iştirak edib

Suriya səfəri çərçivəsində isə Volodimir Zelenski Dəməşqdə suriyalı həmkarı Əhməd Əl Şaraa ilə görüşüb. Ukraynanın Prezident Ofisindən verilən məlumata görə, görüşdə təhlükəsizlik məsələləri müzakirə olunub. "Rusiyanın Ukraynaya qarşı müharibəsinin vəziyyətini də müzakirə etdik. Suriyanın ərazi bütövlüyü mövzusunda dəstəyinə görə minnətdaram. Hərbi və müdafiə sahəsində təcrübə mübadiləsinə böyük maraq var. Həmçinin Ukraynanın etibarlı qida məhsullarının təchizatçısı kimi roluna toxunduq və regionda ərzaq təhlükəsizliyini gücləndirmək üçün birgə imkanları müzakirə etdik. Suriyanın hazırda üzləşdiyi enerji və infrastruktur çətinliklərindən yaxşı xəbərdarıq. Dövlətlərimizin və xalqlarımızın imkanlarını artırmaq üçün birlikdə işləməyə hazırıq", - deyə Ofisin Ukrayna Prezidenti adından verdiyi açıqlamada bildirilib.

Diqqətçəkən məqam ondan ibarətdir ki, bu görüşdə Türkiyənin XİN başçısı Hakan Fidan da iştirak edib. Bu fakt Ankaranın regional prosesdə önəminin göstəricisidir. Dəməşqdə Zelenskinin səfəri çərçivəsində Ukrayna-Suriya-Türkiyə formatında üçtərəfli görüşün keçirilməsi də kifayət qədər ciddi mətləblərdən xəbər verir. Rəsmi açıqlamalara görə, üçtərəfli görüşdə müdafiə əməkdaşlığı və ərzaq təhlükəsizliyi məsələləri müzakirə olunub. Zelenski özünün telegram kanalında yazıb ki, "Dəməşqdə iki görüş - Suriya Prezidenti Əhməd Əl Şaraa və hər iki liderin komandaları ilə ikitərəfli görüş, həmçinin Ukrayna-Suriya-Türkiyə formatında üçtərəfli görüş keçirilib". "Təhlükəsizlik və müdafiə məsələlərindən, İran ətrafında baş verən bütün hadisələrə görə regiondakı vəziyyətdən tutmuş ölkələrimiz arasında enerji və infrastruktur əməkdaşlığına qədər biz hər şeyi müzakirə edə bildik. Həmçinin ərzaq təhlükəsizliyi üzərində işləməyə davam edəcəyik", - deyə o vurğulayıb.

Prezident, həmçinin qeyd edib ki, Ukrayna ilə Rusiya arasında danışıqlar prosesi də müzakirə olunub. "Ukrayna Əsəd rejiminin süqutundan sonra yeni Suriyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Biz sabitliyi və inkişafı dəstəkləməyə davam etməyə hazırıq. Xalqlarımızı, ölkələrimizi və iqtisadiyyatlarımızı daha da gücləndirmək üçün birlikdə daha çox çalışacağıq", - deyə Zelenski əlavə edib.

### Səfirliklərin fəaliyyəti bərpa olunacaq

Onu da qeyd edək ki, səfər zamanı Ukrayna və Suriyada bu ölkələrin səfirliklərinin yenidən açılması barədə razılığa gəlinib. Ukraynanın xarici işlər naziri Andrey Sibiqanın sözlərinə görə, Suriyanın xarici işlər naziri Əsəd Həsən əl-Şeybani ilə danışıqlar aparıb və tərəflər bir sıra vacib məsələləri, eləcə də təşəbbüsləri müzakirə ediblər. Avropa və Yaxın Şərqin təhlükəsizliyinin biri ilə sıx bağlı olduğu vurğulanıb və bu mövzu əsas diqqət mərkəzində olub. "Xalqlarımız üçün davamlı sülhə nail olmaq üçün birlikdə işləməyə davam edəcəyik. Həmçinin iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün böyük potensiala malik sahələr - ticarət, dəniz yollarının inkişafı və logistika məsələlərini müzakirə etdik", - deyə Sibiqa qeyd edib. Nazir qida təhlükəsizliyinin də prioritet olaraq qaldığını vurğulayıb.

O əlavə edib ki, Ukrayna regionda sabitliyi dəstəkləmək üçün Ukraynadan taxıl təşəbbüsü vasitəsilə töhfə verməyə hazırdır. Sibiqa bildirib ki, diplomatik münasibətlərin bərpası ilə bağlı Birgə Kommünikenin imzalanmasından sonra ikitərəfli ticarət doqquz dəfə artıb və bunun daha da genişləndirilməsi üçün imkanlar mövcuddur. Tərəflər humanitar və təhsil sahəsində əməkdaşlıq məsələlərini də müzakirə ediblər. Qeyd olunub ki, Suriyadan olan bir çox tələbə Ukraynada təhsil alıb və almaqda davam edir ki, bu da gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

Nazir onu da deyib ki, tərəflər yaxın vaxtlarda Kiyev və Dəməşq şəhərlərində səfirliklərin fəaliyyətini bərpa etmək barədə razılığa gəliblər.

***N.BAYRAMLI***

# Qlobal inflyasiya proqnozları ümidverici deyil

## Bölgədə davam edən gərginliklər qiymətlərin kəskin artımına yol açır

**İran və Yaxın Şərqdə davam edən hərbi əməliyyatlar qlobal iqtisadiyyata öz ağır zərbələrini vurmaqdadır. Körfəz regionunda hərbi və siyasi ritorikanın sərt qalması xüsusilə də enerji bazarlarında risk amilini daha da yüksək saxlamaqdadır. Bu vəziyyət investorların riskli aktivlərdən qismən uzaqlaşmasına və təhlükəsiz aktivlərə yönəlməsinə səbəb olur ki, gərginlik xüsusilə neft və qızıl bazarlarında qiymətlərin həssas reaksiya verməsini daim izləyir. Qlobal mühitdə əsas indekslərdə artım əvvəlki aylarla nisbətdə çox zəif olub. Belə ki, "Dow Jones" cəmi 2,4 faiz artaraq 46,5 bəndə yüksəlib. "S&P 500" indeksi isə 0,72 faiz artaraq 6,57 bənd, "Nasdaq Composite" isə 1,1 faiz artaraq 21,84 bənd təşkil edib. Avropa bazarlarında da artım tendensiyası müşahidə olunub. "Euro Stoxx" 2,93 faiz, "FTSE 100 Index" 1,85 faiz, "DAX Index" 2,73 faiz yüksəlib. Asiya-Sakit okean regionunda isə əsas indekslər üzrə əsasən mənfi dinamika qeydə alınıb. "Nikkei" 2,42 faiz "TOPIX Index" 1,64 faiz, "Hang Seng Index" 1,52 faiz, "CSI 300 Index" 1,17 faiz geriləyib. Beləliklə, mart ayının sonu və aprel ayının ilk günləri qlobal maliyyə bazarlarında həm iqtisadi məlumatların, həm də geosiyasi risklərin təsiri ilə formalaşan yüksək həssaslıq dövrü kimi yadda qalıb.**

### ABŞ-da və Avropada mənfi siqnallar özünü biruzə verməkdədir

Dünya iqtisadiyyatının əsas güc mərkəzi olan ABŞ-da artıq mənfi siqnallar özünü biruzə verməkdədir. Cari ilin ilk rübündə əmək bazarı hesabatına əsasən, bu ölkədə zəifləyən əməkhaqqı dinamikası bazarlara öz təsirlərini göstərib. Mart statistikası əməkhaqqı artımının həm aylıq, həm də illik tempdə yavaşlaması dollar, istiqraz və səhm bazarlarının qiymətləndirməsində balansı dəyişib. Orta saatlıq qazanc aylıq müqayisədə cəmi 0,2 faiz artıb ki, bu da proqnozlaşdırılan göstəricidən aşağıdır. Ekspertlərin fikrincə, əməkhaqqı artımının həm aylıq, həm illik əsasda proqnozlardan zəif qalması inflyasiya təzyiqi baxımından mesajların verməsi deməkdir.

ABŞ-la yanaşı, Almaniya, Avropa və Böyük Britaniyada açıqlanan makroiqtisadi göstəricilər monetar siyasət gözləntilərini yenidən formalaşdırarkən, bölgədə davam edən gərginlik investorların risk qiymətləndirmələrini daha da sərtləşdirir. Avrozonada və xüsusilə Almaniyada açıqlanan iqtisadi göstəricilər sənaye sektorunda zəifliyin davam etdiyini göstərir. İstehsal və ixrac göstəricilərindəki durğunluq Avropa iqtisadiyyatının bərpa prosesinin ləng getdiyini ortaya qoymaqla yanaşı, inflyasiyanın yenidən artmasına işarə edir. Avropa Mərkəzi Bankının hazırkı yumşaq monetar siyasətinin sərtləşəcəyinə dair ehtimallar böyüyür. Böyük Britaniyada da zəif artım və monetar ehtiyatlılıq müşayiət edilir. Birinci rübə dair açıqlanan iqtisadi məlumatlar iqtisadi artımın kövrək və qeyri-sabit olaraq qaldığını təsdiqləyir. İstehlakçı xərclərində və investisiyalarda məhdud artım "Bank of England"ın faiz siyasətində ehtiyatlı mövqeyini davam etdirəcəyini göstərdi. Bu fonda funt-sterlinq dalğalı dinamika nümayiş etdirməkdədir.



### "ING Group": dünya ölkələrində inflyasiya riskləri yüksəkdir

Mütəxəssislər bildirirlər ki, Hörmüz boğazının bağlanması qlobal neft qiymətlərində kəskin artım dünya bazarlarında təşvişə səbəb ola bilər. Bu boğaz dünya enerji təhlükəsizliyinin əsas arteriyalarından biri hesab olunur. Boğazın bağlanması qlobal iqtisadi şoka çevrilə, əksər ölkələrdə inflyasiya ikirəqəmli həddə çatdıra bilər. Niderlandın ən böyük maliyyə qrupu olan "ING Group"un hesablamalarına əsasən, bütün dünya ölkələrində inflyasiya riskləri yüksək olaraq qalır və qiymət artımına həm xarici, həm də daxili amillər təsir göstərir. Xüsusilə qlobal ərzaq bazarındakı bahalaşma və daxili kommunal tarif artımları inflyasiya təzyiqlərini gücləndirən əsas faktorlar kimi qiymətləndirilir. Yeni gözləntilərə görə, qlobal ərzaq qiymətlərində təxminən 10 faiz artım baş verəcək ki, bu da əksər ölkələrdə qiymət indekslərini artıracaq.

Digər institutların ehtimallarına görə, qlobal iqtisadiyyatda ölkələr üzrə inflyasiya gözləntiləri ni də fərqli istiqamətə səmtləndirir. ABŞ-də təklif şoku kimi çıxış edən tariflərin tədricən istehlak qiymətlərinə ötürülməsi əlavə inflyasiya təzyiqləri yaradacaq. Avropa və digər region ölkələrində bahalı tarif çərçivəsi mənfi tələb şoku kimi çıxış edir. Ümumilikdə, 2026-cı ildə inkişaf etmiş ölkələrdə (İEÖ) inflyasiya proqnozu ən azı 2-4 faiz, inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) isə 2,5-5,4 faiz artımla fərz edilir.

"Standard & Poor's" ("S&P Global Ratings") beynəlxalq reytinq agentliyi açıqladığı yeni sənəddə dünya üzrə orta illik inflyasiyanın 3 fazi səviyyəsində artacağı proqnozlaşdırılır. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarında da inflyasiyanın yüksələcəyinə dair ehtimallar yer alır. BVF hesab edir ki, mövcud makroiqtisadi şərait və bazar təhlilləri inflyasiyanın artırıcı istiqamətdə dəyişdiyini göstərir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, martda ərzaq qiymətləri indeksi ötən illə dövrü əsasda 1,7 faiz artıb, ancaq vəziyyət qiymət indeksinin ilin sonuna qədər daha da artacağına işarə edir.

### Azərbaycanda idxal inflyasiyası yüksələ bilər

"ING Group"un təxminlərinə görə, Azərbaycanda idxal inflyasiyası fonunda qiymət indeksi 1,5 faiz-bənd yüksələ bilər. Ölkəmizdə illik inflyasiyanın 2026-cı ildə 5 faiz, 2027-ci ildə isə 5,5 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Əvvəlki proqnozlarla müqayisədə 2026-cı il üzrə gözləntilər 0,2 faiz bəndi azaldılıb, 2027-ci il üzrə isə 0,9 faiz bəndi artırılıb. Analitiklərin qiymətləndirmələrinə görə, 2026-cı ilin ilk rübündə inflyasiya 5,8, ikinci rübdə 5,5, 3-cü rübdə 4,9, dördüncü rübdə isə 4,6 faiz səviyyəsində gözlənilir. Yeri gəlmişkən, İqtisadiyyat Nazirliyi 2026-cı ildə inflyasiyanı 4,8 faiz, Mərkəzi Bank isə son qiymətləndirmə üzrə 5,7 faiz səviyyəsində proqnozlaşdırıb.

Xatırladaq ki,Azərbaycanda inflyasiya portfelinin təqribən yarısı idxal mallarının qiymət dəyişikliyindən formalaşır. Belə ki, ölkəmizdə inflyasiyanın təxminən 45 faizi yerli istehsal və daxili tələbdən, qalan 50 faizdən çoxu isə idxaldan yaranır. Bu o deməkdir ki, hazırda qeydə alınmış 5,7 faizlik infylyasiyanın təxminən 2,9 faizi idxala bağlıdır. Bunun da əsas başlıca səbəbi müxtəlif əmtəələrin, xüsusilə də ərzaq mallarının, xüsusilə də yerli qida istehsalında tələb olunan xammal komponentlərinin idxalının xaricdən gətirilməsidir. Bu baxımdan inkişaf etmiş bazarlarda və Yaxın Şərq gərginliyindən təsirlənən regionlarda artan qiymət əmsallarının idxal inflyasiyası üçün yeni risklər yaratması gözləniləndir.

### Mərkəzi Bankdan yeni proqnoz

Mərkəzi Bank bildirir ki, baza ssenariyə əsasən, 2026-cı ilin və 2027-ci ilin sonuna illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Son meyillərin təhlili 2026-cı ilə inflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi ehtimalının olduğunu göstərir. Ötən iclasdan bəri inflyasiya riskləri balansına artırıcı təsir göstərə bilən amillərin aktivləşməsi müşahidə olunur. Regionda gərginliyin kəskin fazaya keçməsi qlobal əmtəə və maliyyə bazarlarında qiymət və indekslərin dəyişkənliyini yüksəltməkdədir. Bu şəraitdə əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Belə ki, qlobal neft-qaz təchizat zəncirlərində pozuntuların yaranması, enerji məhsullarının qiymətinin artımı və logistika xərclərinin yüksəlməsi ticarət tərəfdaşlarında inflyasiyanın artımına səbəb ola bilər. İdxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi riski ticarət tərəfdaşlarında inflyasiya prosesləri ilə yanaşı, nominal effektiv məzənnənin dinamikasından da asılı olacaqdır. Daxili risk faktorları arasında təklif - xərc amilləri mühüm olaraq qalır.

***E.CƏFƏRLİ***

# 45 günlük atəşkəs...

## ABŞ və İran "İslamabad şərtləri"nə hə deyəcəkmi?

Bir aydan artıqdır davam edən Yaxın Şərq problemi müvəqqəti də olsa dayana bilər. "Axios" məlumatlı mənbələrə istinadən xəbər verir ki, ABŞ, İran və bir qrup regional vasitəçi münaqişənin dayandırılmasına yol aça biləcək potensial 45 günlük atəşkəsin şərtlərini müzakirə edirlər. Verilən xəbərlərə görə, danışıqlar Pakistan, Misir və Türkiyənin vasitəçiliyi və ABŞ Prezidentinin nümayəndəsi Stiv Vitkoff ilə İranın xarici işlər naziri Abbas Əraqçi arasında birbaşa "SMS" mesajlaşması üzərindən aparılır.

### İki mərhələli həll planı...

Qeyd edək ki, son günlərdə daha aktiv və dağıdıcı forma alan münaqişədə "taym aut" götürülməsi ilə bağlı bir neçə dəfə cəhdlər olub. Sadəcə tərəflər arasında kompromisin əldə edilməməsi buna mane olub. İstər ABŞ, istərsə də İran irəli sürdüyü şərtlərdən bir addım belə geri çəkilmək fikrində deyillər. Vurğulanmalıdır ki, Tramp administrasiyası son günlərdə Tehrana bir neçə təklif göndərib, lakin İran rəsmiləri hələ də onları qəbul etməyib. Mənbələr vasitəçilərin tərəflərlə iki mərhələli razılaşmanın şərtlərini müzakirə etdiklərini bildiriblər. 45 günlük atəşkəs məhz birinci mərhələ sayılacaq. Bu, həm də qarşılıqlı danışıqlar üçün münbit şərait yarada bilər. 45 gün ərzində mövqelər üst-üstə düşərsə, atəşkəs uzadıla və ya birbaşa sülh imzalana bilər. "Axios" mənbələrinə görə, ikinci mərhələ münaqişənin daimi sonlanması ilə bağlı razılığı özündə əks etdirəcək.

İndiki halda isə müzakirə olunan çərçivə planı dünən (bazar ertəsi) Pakistan tərəfindən təqdim olunub. "Reuters" yazır ki, İslamabad təkliflərini ABŞ və İrana təqdim edib. Plan dərhal atəşkəs elan edilməsini və sonradan hərtərəfli sazişin bağlanmasını nəzərdə tutur. Pakistan Ordusunun Baş Qərargah rəisi Asim Munir ABŞ-ın vitse-prezidenti J.D. Vens, xüsusi elçi Stiv Vitkoff və İranın xarici işlər naziri Abbas Əraqçi ilə əlaqə saxlayıb. İslamabadın təklifinə görə, atəşkəs dərhal qüvvəyə minəcək və bu da Hörmüz boğazının açılmasına səbəb olacaq. Saziş tərəflərə daha geniş bir razılaşmanı yekunlaşdırmaq üçün 15-20 gün vaxt verəcək.

Şərti olaraq "İslamabad Sazişi" adlandırılan saziş, Hörmüz boğazından gəmiçilik üçün regional çərçivəni əhatə edəcək və Pakistanın paytaxtında son qarşılıqlı (üz-üzə) danışıqlar gözlənilir. Mənbə bildirib ki, yekun sülh müqaviləsinə İranın sanksiyaların aradan qaldırılması və dondurulmuş aktivlərin



### Danışıqlar pərdə arxasında aparılır...

azad edilməsi müqabilində nüvə silahı əldə etməmək öhdəliyi daxil olacaq. İki Pakistan mənbəsi isə bildirib ki, İran hələ heç bir öhdəlik götürməyib. Media məsələ ilə bağlı müraciət etsədə, nə ABŞ və İran rəsmiləri, nə də Pakistan Xarici İşlər Nazirliyinin sözçüsü Tahir Andrabi şərh verməyib.

### 15-5 şərtlər mübadiləsi baş tutmadı...

Qərb politoloqları indiki mərhələdə razılaşmanın əldə olunması ehtimalını o qədər də yüksək dəyərləndirmirlər. Bir neçə gün öncəki "təcrübəyə" söykənərək bildirilir ki, İran ABŞ-ın irəli sürdüyü öhdəlik və şərtləri qəbul etmək fikrində deyil. Xatırladaq ki, mart ayının son günlərində "Bloomberg" ABŞ-ın İrana müharibəni bitirmək üçün 15 maddəlik plan təqdim etdiyini xəbər vermişdi. Bu şərtlərdən 12-si Amerikanın tələbləri, üçü isə Tehranın bu tələbləri yerinə yetirəcəyi halda əldə edəcəkləri idi. Planda İrana qarşı bütün sanksiyaların ləğvi, ABŞ-ın mülki nüvə layihəsinin (elektrik enerjisi istehsalı) inkişafına yardım göstərməsi, 3. Sanksiyaların yenidən tətbiqi təhlükəsinin aradan qaldırılması kimi Tehranın maraqlarına sərf edəcək amillər yer alırdı - bununla belə rəsmi Vaşinqton İranın nüvə proqramının müəyyən çərçivədə dondurulması, zənginləşdirilmiş uranın nəzarət və razılaşdırılmış limitlər daxilində saxlanması, raket proqramının daha sonrakı mərhələdə say və mənzil məhdudiyyətləri ilə müzakirəsi, nüvə proqramının yalnız mülki və müdafiə məqsədləri ilə məhdudlaşdırılması, İran ərazisində silah səviyyəli nüvə materialının istehsalına qadağa və bu kimi tələblər irəli sürmüşdü. Amma bu tələblər Tehran tərəfindən qəbul olunmadı. Əksinə, Tehran daha lokonik - 5 şərt irəli sürdü. Bildirilirdi ki, Tehranın tələbləri arasında ABŞ və İsrail tərəfindən təcavüz və qətlin tamamilə dayandırılması, İrana yenidən hərbi təcavüz edilməməsini təmin etmək üçün konkret mexanizmlərin yaradılması, müharibə zərərlərinin və təzminatların ödənilməsinin təmin edilməsi və aydın şəkildə müəyyən edilməsi, bölgədəki bütün cəbhələrdə və bütün müqavimət qrupları üçün müharibənin dayandırılması, İranın Hörmüz boğazı üzərində nəzarəti həyata keçirməklə bağlı suveren hüququnun beynəlxalq səviyyədə tanınması və təminatları kimi məsələlər yer alıb.

### Regional aktorlar narahatdır...

Beynəlxalq media yazır ki, regional vasitəçilər hesab edirlər ki, Hörmüz boğazının tam açılması və İranın yüksək zənginləşdirilmiş uran məsələsinin həlli (ya onu ölkədən çıxarmaqla, ya da səviyyəsini aşağı salmaqla) yalnız yekun razılaşmadan sonra nəticələnə bilər. Bu iki məsələ İranın danışıqlarda əsas sövdələşmə elementləridir və buna görə də iranlılar müvəqqəti atəşkəs naminə onlardan tamamilə imtina etməyə razı olmayacaqlar. Vasitəçilər Tehranın razılaşmanın birinci mərhələsində hər iki məsələdə qismən güzəştə gedə biləcəyini ehtimal etmək istəyirlər. Bu, real görünmür. Regional vasitəçilər həm də Tramp administrasiyasının atəşkəsin müvəqqəti olmamasını təmin etmək üçün təklif edə biləcəyi addımlar üzərində işləyirlər. Eyni zamanda, medianın məlumatına görə, region ölkələri ABŞ və İsrailin İranın ölkənin enerji infrastrukturuna hücumu ultimatumuna cavabdan narahatdırlar - qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp İrana xəbərdarlıq edərək bildirib ki, əgər rəsmi Tehran razılığa gəlməsə və ya Hörmüz boğazını açmasa, 48 saatdan sonra ölkəni "həqiqi cəhənnəm" gözləyir. Tramp bu barədə özünə məxsus "Truth Social" sosial şəbəkəsində paylaşım edib. Ağ Ev rəhbəri paylaşımında Tehran administrasiyasına qarşı kəskin ifadələr işlədib: "İrana saziş bağlamaq və ya Hörmüz boğazını açmaq üçün 10 gün vaxt verdiyimi xatırlayırsınızmı? Vaxt daralır - onların üzərinə həqiqi cəhənnəm çökməsinə cəmi 48 saat qalıb".

Regional aktorlar isə Tehranın cavabından narahatdırlar. Onlar İranın Fars körfəzi dövlətlərinin neft və su ehtiyatlarını dağıdacağından çəkinirlər. Xarici medianın yazdığına görə, ABŞ kəşfiyyatı İranın Hörmüz boğazından gəmilər üçün sərbəst keçid açmağa razılaşması ehtimalını zəif sayır - səbəb kimi isə, bu strateji əhəmiyyətli neft ixracı arteriyasına nəzarətin danışıqlarda aktiv təzyiq vasitəsi rolunu oynamasıdır.

### Müzakirə "iki paytaxtda" getmir...

Qeyd edək ki, bir sıra Qərb politoloqları da indiki geosiyasi fonda İran-ABŞ danışıqlarında sülh ehtimalını müharibənin əvvəlki dövrünə nisbətən daha zəif qiymətləndirirlər. Xüsusilə Yaxın Şərqdə gərginliyin artması fonunda İranın Körfəz ölkələrinə qarşı hədələyici manevrləri, Hörmüz boğazında təhdid yaratması dialoq imkanlarını daha mürəkkəb və çoxqatlı edib. Bir çox siyasi şərhçilər düşünür ki, İran indiki halda raket sistemləri və ya nüvə məsələsi ilə yanaşı, daha çox "proksi imkanlarını" da qorumağa çalışır. Bəzi mənbələr Tehranın ABŞ ilə hər hansı bir razılaşmaya getmə ehtimalını İran üçün gərgin bir hal kimi dəyərləndirir:

- Hörmüz boğazında ortaq iqtisadi layihə Vaşinqtonun Körfəz sisteminə daha da oturuşmasına yol açar;
- ABŞ-ın bazalarının İrana daha yaxın coğrafiyaya gətirilməsi ehtimalı İran üçün əlavə problemlər yaradacaq;
- Beləliklə, Tehranın ətrafında formalaşdırdığı "təhlükəsizlik xətti" dağılacaq.

Bununla yanaşı, beynəlxalq sistemdə baş verən digər böhranlar, xüsusilə böyük güclər arasında rəqabətin artmasının İran məsələsini daha geniş geosiyasi bir çərçivəyə daşıyır. Bir çox siyasi mütəxəssislər razılaşma mətninin cəmisi iki paytaxtda müəyyənləşəcəyinə "inanmır" - verilən proqnozlara görə, ABŞ-ın İranla razılaşması onu əsas rəqabət apardığı geostrateji məkana - Cənub Şərqi Asiyaya bir addım da yaxınlaşdıracaq. Artıq bu barədə də ciddi düşünmək lazım gələcək.

Nəticədə, siyasi texnoloqlar indiki şəraitdə İran-ABŞ danışıqlarının daha çox taktiki xarakter daşıdığını düşünür - tərəflər bu yolla vaxt qazanmaq, mövqeləri qorumaq və beynəlxalq təzyiqləri idarə etmək kimi imkanlarını dəyərləndirirlər. Bu isə real və davamlı sülh razılaşmasının yaxın perspektivdə əldə olunmasını olduqca çətin edir.

### Razılaşma xəbəri fond birjalarına da təsir etdi...

ABŞ və İran arasında mümkün razılaşma xəbərləri fonunda 6 aprel tarixində Amerika fond indeksləri üzrə fyuçerslər yüksəliş göstərib. S&P 500 üzrə kontraktlar 0,3 faiz, Nasdaq 100 - 0,47 faiz, Dow Jones isə 0,13 faiz artıb. Eyni zamanda, Brent markalı neftin fyuçersləri ucuzlaşıb - gün ərzində ən aşağı səviyyədə 1 faizdən çox enərək bir barel üçün 107,36 dollara düşüb. Spot qızıl isə əksinə, 0,29 faiz bahalaşaraq unsiya üçün 4689 dollara yüksəlib.

6 aprel bazar ertəsi Avropanın əsas fond bazarları bayram səbəbindən bağlı olub. Həmçinin Honq Konq və Çin birjalarında da ticarət aparılmayıb. Yaponiyada isə səhmlər cüzi artım göstərib - Nikkei 225 indeksi 0,55 faiz yüksəlib.

*Pərviz SADAYOĞLU*

# Paris ətrafında minlərlə sakin etiraz aksiyasına çıxıb



Parisin şimalında yerləşən Saint-Denis şəhərinin yeni meri, sosialist Balli Bagayoko irqi ayrı-seçkiliyə qarşı çağırış edib.

AZƏRTAC xəbər verir ki, Paris ətrafındakı ikinci böyük şəhər olan Saint-Denisdə minlərlə insan yeni merin çağırışı ilə irqi ayrı-seçkiliyə qarşı toplanıb.

Mer bu aksiyanı CNews kanalında ona qarşı edilən irqi təhqirlərdən sonra təşviq edib. "Bu gün biz çoxsaylıyıq... Biz sağçı ekstremizmdən qorxuruq. İrqi ayrı-seçkiliyə qarşı mübarizə mütləq qələbə ilə nəticələnəcək. Biz Fransayıq!", - deyə Bagayoko tribunadan bildirib.

Şəhərin mərkəzindəki bələdiyyə binasının önündə keçirilən aksiyada bir sıra solçu siyasi xadimlər, eləcə də sosialistlərin nümayəndə heyəti, bir neçə həmkarlar ittifaqı və təşkilatlar iştirak edib.

Bagayoko mətbuata bildirib ki, bu mübarizə irqi ayrı-seçkiliyə, antisemitizmə, islamofobiya və bütün diskriminasiya formalarına qarşıdır.

Mer, həmçinin Prezident Emmanuel Makronun mövzu ilə bağlı susqunluğunu tənqid edib.

Paris prokurorluğu "xalqın etnik, milli, irq və ya dini mənşəyinə görə ictimai təhqir" maddəsi üzrə istintaqa başladığını elan edib. Bagayoko isə hökumətin bu dəstəyini vaxtında atılmayan addım kimi qiymətləndirib.

# Media: Aİ-yə üzv ölkələrə büdcə böhranı təhlükəsi ilə bağlı xəbərdarlıq edilib



Avropa Komissiyası Avropa İttifaqına (Aİ) üzv ölkələrin hökumətlərinə yüksək enerji qiymətləri fonunda iqtisadiyyata həddindən artıq dəstəyin büdcə böhranına səbəb ola biləcəyi barədə xəbərdarlıq edib.

AZƏRTAC xəbər verir ki, "Financial Times" qəzeti bu barədə mənbələrə istinadla məlumat yayıb. Məlumata görə, Avropa İttifaqı ölkələri elektrik enerjisi subsidiyaları, vergi və aksiz rüsumlarının azaldılması və qiymət məhdudiyyətləri də daxil olmaqla, yüksək yanacaq qiymətləri ilə mübarizə aparmaq üçün tədbirlər planı həyata keçirir. Avropa Komissiyası isə xəbərdarlıq edib ki, bu cür tədbirlərin əhatə dairəsi və müddəti məhdud olmalıdır. Brüssel dəstək tədbirlərinin yüksək inflyasiyaya və büdcə kəsirinin kəskin artmasına səbəb ola biləcəyindən ehtiyatlanır.

Nəşr qeyd edir ki, əgər dəstək tədbirləri büdcə böhranı ilə nəticələnəcəksə, bu, Avropa İttifaqının son altı ildə üçüncü iqtisadi böhranı olacaq. Belə ki, Brüssel 2020-ci ildə koronavirus pandemiyasının nəticələri ilə üzləşib və iki il sonra Ukrayna böhranı nəticəsində iqtisadi çətinliklər yaşayıb. Nəticədə Avropa İttifaqının ümumi dövlət borcu ümumdaxili məhsulun 77,8 faizindən (2019-cu il) 82,1 faizinə yüksəlib (2025-ci il).

# İİKK: Hörmüz boğazından keçid heç vaxt əvvəlki kimi olmayacaq



Gəmilərin Hörmüz boğazından keçməsi, xüsusən də ABŞ və İsrail üçün heç vaxt əvvəlki kimi olmayacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) məlumat yayıb.

İİKK-nın Hərbi Dəniz Qüvvələri X sosial platformasında yayımlanan açıqlamasında qeyd olunub: "Hörmüz boğazı, xüsusən də ABŞ və İsrail üçün əvvəlki statusuna heç vaxt qayıtmayacaq".

Bəyanatda, həmçinin vurğulanıb ki, İİKK Hərbi Dəniz Qüvvələri İran hakimiyyətinin Körfəzdə yeni bir nizam yaratmaq planının həyata keçirilməsi üçün əməliyyat hazırlıqlarını tamamlayıb.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Ən qiymətli nemət...

## Sağlam olmaq üçün nə etməliyik?




**Sağlamlıq həyatımızda ən qiymətli sərvətlərdən biridir. Çox vaxt bu nemətin dəyərini yalnız onu itirdikdən sonra anlayırıq. Ancaq sağlamlıq elə bir xəzinədir ki, nə pulla alınır, nə də başqa bir şeylə əvəz olunur. Sağlam bədən və sağlam ruh insanın xoşbəxt, enerjili və uğurlu həyat yaşamasının əsas şərtidir. Unutmaq olmaz ki, sağlamlıq sadəcə, xəstə olmamaq demək deyil. Bu, həm də insanın özünü fiziki, psixoloji və sosial baxımdan yaxşı hiss etməsidir. Sağlamlığın qorunması isə təsadüfi deyil, düzgün həyat tərzinin nəticəsidir. Düzgün qidalanma, fiziki aktivlik, kifayət qədər yuxu və stressdən uzaq durmaq sağlamlığın əsas sütunlarıdır. Həmçinin mütəmadi tibbi müayinələr də xəstəliklərin qarşısını vaxtında almağa kömək edir.**

### Yeməkdən yarım saat əvvəl...

Mütəxəssislər də kalorili, faydalı və ekoloji cəhətdən təmiz qidalar qəbul edilməsinə xüsusi fikir verməyi məsləhət görürlər. Hər bir qidanın isə normadan artıq qəbul edilməsi xoşagəlməz hallara səbəb ola bilər. Bundan başqa, gün ərzində 2-3 litr maye qəbul edilməlidir. Yeməkdən yarım saat əvvəl su içmək lazımdır, yemək əsnasında və qidalanmadan dərhal sonra su içilməməlidir.

### Sutka ərzində 10-12 saat yatırsınızsa...

Sağlam olmaq üçün ən azı 4-6 saat dərin yuxunun vacibliyini xüsusilə vurğulayırlar. Mütəxəssislərin qənaətinə görə, sağlam insan üçün 4-6 saat yuxu yetərlidir. Əgər insan sutka ərzində 10-12 saat yatırsa, yaxud səhər tezdən oyananda özünü tam gümrah hiss etmirsə, bu artıq sağlamlıqda olan ciddi problemlərə işarədir. Normal, sağlam, dərin yuxu sağlam olmağın əlamətidir.

### Bu saatda idman etməyin...

İnsan orqanizmi saat 06:00-da oyanır. Amin turşuları, hormonlar və şəkərin ifrazı başlayır. Odur ki, saat 6-da oyanmaq faydalıdır, lakin şəkər və alkoqoldan uzaq durmaq lazımdır. Ürəyimizin fəaliyyəti isə saat 07:00-da güclənməyə başlayır. Həkimlər bu saatda idman etməməyi və ürəyin yüklənməsinə səbəb olacaq hər hansı fiziki hərəkətə yol verməməyi məsləhət görür.

Yeri gəlmişkən, bu gün Ümumdünya Sağlamlıq Günü kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-də BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fəaliyyətə başlaması ilə əlaqədardır. Belə ki, 1950-ci ildən başlayaraq hər il aprelin 7-si Ümumdünya Sağlamlıq Günü ənənəvi olaraq qeyd edilir. Məhz bu gün diqqəti əsas ictimai səhiyyə məsələlərinə yönəltmək üçün qlobal bir imkandır. Məsələn, ÜST-nın Avropa bürosu xüsusi tədbirlər keçirir, eləcə də siyasətçilər və digər tərəfdaşlar arasında müzakirələrin aparılmasına şərait yaradılır. Eyni zamanda, ÜST-nın prioritet hesab etdiyi sağlamlığa aid qlobal miqyasda vacib əhəmiyyət kəsb edən mövzular müzakirə edilir.

### Hər il 13 milyon nəfər...

ÜST-nın hesablamalarına əsasən, qarşısı alınmayan ekoloji səbəblərin yaratdığı xəstəliklərdən hər il dünyada 13 milyon nəfər həyatını itirir. Səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin düzgün müalicəsinin aparılması 2030-cu ilə qədər qarşıda duran əsas məsələlərdən biridir. Uzun və sağlam ömür yaşamağa nail olmaq və sağlamlığın möhkəmləndirilməsi ictimai səhiyyənin qarşısında duran başlıca vəzifələrdən sayılır.

Ümumdünya Sağlamlıq Gününün məqsədləri sırasına bir sıra məsələlər daxildir: Sağlamlıq qaydalarına düzgün əməl olunması, səhiyyə məsələlərinin həllində dövlət orqanlarına kömək edilməsi, həkimlərin peşəkarlığının artırılması, düzgün qidalanma, idmanın və düzgün həyat tərzinin təbliği. Bundan başqa, gənclər arasında sağlam vərdişlərin yayılması, yaşlılara və sağlamlıq imkanları məhdud olanlara güzəştli şəraitin yaradılması, siqaret çəkməyin, alkoqollu içkilər və narkotik vasitələrin zərəri barədə məlumatlandırma da vacib nüanslardan biridir.

Yaşadığımız dövrün ən böyük problemlərindən biri sağlamlığın vacib ünsürlərinə lazımi diqqət yetirməməkdir. Bu baxımdan insan sağlamlığının müdafiəsini əsas hədəfə çevirən mübariz insanlara ehtiyac var. Sağlamlığa gedən yol isə sağlam həyat tərzi və düzgün qidalanmadan keçir. Gəlin, Ümumdünya Sağlamlıq Günündə sağlam və bərabər dünya üçün birlikdə çalışmaq öhdəliyini üzərimizə götürək. Daim sağlam və gümrah olmağınız diləyi ilə!

***Yeganə BAYRAMOVA***

# Zamanın yaratdığı jurnal...

## "Molla Nəsrəddin" necə tarix yazdı?

20-ci əsrin əvvəllərində Azərbaycan ictimai fikrinin sarsılmaz tribunası kimi tarixə düşən "Molla Nəsrəddin" jurnalı təkcə bir nəşr deyil, bütöv bir maarifçilik hərəkatı idi. Onun səhifələrində dövrün ağrıları, cəmiyyətin yaraları, geriliyin səbəbləri açıq və cəsarətli dillə ifşa olunurdu. Bu jurnal sözün əsl mənasında xalqın güzgüsünə çevrilmişdi.

1906-cı ilin 7 aprel günü Azərbaycan mətbuatının və mədəniyyətinin tarixinə əlamətdar bir gün kimi yazıldı. Həmin gün "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" xitabı ilə həqiqətən də, xalqın dərdinə şərik olacaq, onunla bir deyib bir güləcək mətbu orqanının - "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi çapdan çıxdı. "Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafında misilsiz rolu var. Bu dövrün satirik ədəbiyyatının C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqqverdiyev, Ö.F.Nemanzadə, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, S.Mümtaz, C.Cabbarlı və başqa nümayəndələri bu jurnalın ətrafında birləşmişdilər. Həmin yazıçıların əksəriyyəti özlərinin yüzlərlə dəyərli əsərlərini bu jurnalda dərc etdirirdilər.

Jurnal nəinki Azərbaycan miqyasında, hətta, bütün Orta və Yaxın Şərqdə müstəmləkə zülmünə, mütləqiyyət üsuli-idarəsinə, iqtisadi və mədəni geriliyə, dini fanatizmə qarşı çevrilmiş kəskin siyasi satiranın bayraqdarı kimi tanınmışdı. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmasına icazə istədi. Bu təşəbbüsü o zaman Qafqazda Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri bəyəndi, bu barədə xəbərlər yaydılar. "İrşad", "Həyat", "Tərcüman", "Vozrojdeniye", "Kaspi", "Baku", "Novoye obozreniye", "Kavkazskoye utro", "Na povorote" qəzetləri "Molla Nəsrəddin"i çıxarmaq təşəbbüsü barədə oxuculara xəbər verdilər. Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis 7 aprel" sərlövhəli baş məqaləsi, "Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu. Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsindən çox keçmədi ki, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər.

### Sözü ilə savaşan dərgi...

Əlbəttə ki, satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrilirdi. Bu jurnalı zaman özü yetişdirmişdi. Cəlil Məmmədquluzadə "Mola Nəsrdddin"i zəmanə özü yaratdı",-deyə yazırdı. Obrazılı desək, "Molla Nəsrəddin" xalq ruhundan, folklorundan bəhrələnməklə öz fikrini oxuculara çox gözəl, məharətlə çatdırmaq bacarığına malik idi. Jurnalın redaktoru sadəcə olaraq söz demək xatirinə qələmə sarılmamışdı. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi.

### "Molla Nəsrəddin" məktəbi




Qısa bir zaman kəsiyində "Molla Nəsrəddin" məşhur satirik jurnal kimi tanındı. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. C.Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Suri-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yəşen" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Əldə olunan bütün uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar apararaq "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdu. 1922-ci ildə Vətənə qayıdan C.Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdi. O, böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırırdı.

### 25 ildə 748 nömrə...

"Molla Nəsrəddin" Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdi. Ona görə də "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu. Jurnal 1906-1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. 25 il ərzində jurnalın 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxıb.

Bu gün "Molla Nəsrəddin" jurnalının 120 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır.

***Yeganə BAYRAMOVA***

*İdman*

# Avropa çempionatında Azərbaycanı 14 şahmatçı təmsil edəcək




Aprelin 7-də Polşanın Katovitse şəhərində şahmat üzrə şəxsi Avropa çempionatına start veriləcək.

Azərbaycan Şahmat Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, mötəbər yarışda 43 ölkədən 502 şahmatçı iştirak edəcək.

Azərbaycanı Avropa çempionatında 14 şahmatçı təmsil edəcək. Qitə çempionatında təmsilçilərimizdən Aydın Süleymanlı, Məhəmməd Muradlı, Nicat Abasov, Read Səmədov, Xaqan Əhməd, Xəzər Babazadə, Şiroğlan Talıbov, Vüqar Manafov, Şahin Vəliyev, Ümid Aslanov, Gövhər Beydullayeva, Süleyman Süleymanlı, Əli Zuqanov və Ceyhun Hüseynzadə mübarizə aparacaq.

Avropa çempionatı gələn il keçiriləcək Dünya Kubokuna vəsiqə qazandıracaq.

Xatırladaq ki, qitə çempionatı 11 turdan ibarət olaraq təşkil edilir. Yarışa aprelin 19-da yekun vurulacaq.

# "Sabah"ın U-14 komandası "Antalya City Friendship Cup" turnirinin qalibi olub

"Sabah"ın U-14 komandası Türkiyənin Antalya şəhərində keçirilmiş "Antalya City Friendship Cup" beynəlxalq futbol turnirinin qalibi olub.

"Report" kluba istinadən xəbər verir ki, Nasir Nəsirlinin baş məşqçisi olduğu komanda qrup mərhələsində Türkiyənin "Manavqat" (4:0), "TSI Academy" (7:1) və "Göztepe" (6:1) komandalarını məğlub edib.

U-14 yarımfinalda meydan sahibi ölkənin "Kardelenspor" (5:1) komandasını üstələyərək həlledici matça vəsiqə qazanıb. Final oyununda Azərbaycanı təmsil edən "Young Pro" komandasına 3:0 hesabı ilə qalib gələn "Sabah" turniri çempion kimi başa vurub.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5144**
**Sifariş: 464**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova